

*İsmayıl İmanzadə*

## NƏ VAR Kİ...

Keçir dərd içində hər vaxtım-vədəm,
Düşməni qorxutmur qarğışım, hədəm.
Kəsiblər qarşımı, qoymurlar gedəm-
Haqqın ətəyindən tutub ölməyə.

Ta burdan o yana bağlıdır yolum,
Bir acı sözlə də dəyişir halım.
Məni qınamayın, yoxdu macalım -
Şeirlə başımı qatıb ölməyə.

Vaxtsız əcəl yola qəfildən çıxır,
Adam var çörəyi qəbirdən çıxır.
Rur da bədəndən ta birdən çıxır -
Qoymur ha, adamı yatıb ölməyə.

Yamanlıq artdıqca sızıldayır can,
Şeytandan mərhəmət diləyir hər yan.
Asılan yoxdursa dar agacından -
Nə var ki, yüyürüb-yortub ölməyə?..

Dəyişib dünyanın əzəli-ilki,
Heç nə yuya bilmir qəlbdəki çirki...
İllər elə gəlib, elə keçir ki -
Vaxt qalmır arzuya çatıb ölməyə.

## BU SEVGİ ...

Gizli gəlişindən xəbərsiz idim,
Qəfildən yoluma çıxdı bu sevgi.
"Bəlkə göydən enmiş mələkdir" - dedim,
Gözümdən könlümə axdı bu sevgi.

Bir göz qırpımında qanıma keçdi,
Közərdə-közərdə dindirdi məni.
Sədləri adlayıb yanıma keçdi,
Hərdən "cin atı"na mindirdi məni.

Arxamca sürünən kölgə kimiydi,
Yaxamdan əlini çəkən deyildi.
Cavabı bilinməz "bəlkə" kimiydi,
Qıvrılıb qarşımda çökən deyildi.

Bir az fırtınaya, bir az yağışa,
Bir az da tufana bənzəri vardı.
Gedəndə dilində döndüm qarğışa,
Ruhumu özüylə çəkib apardı...

Neyləyim... yanımdan dinməz ötmədi,
Məni dilə tutub yola gətirdi.
Qovsam da uzağa çıxıb getmədi,
Axırda başıma bəla gətirdi...

## SİZDƏ HAVA NECƏDİR

Nə doluyam, nə də boş,
Nə də haray-həşirəm.
Çəkilib öz içimə,
Dərdimlə dərdləşirəm.

Məni duyub anlayan
Kimsə yoxdur yanımda.
Hərdən çabalayıram
Ünvansız ünvanımda.

Gələnim-gedənim yox,
Lal sükut söz xırmanım.
Döyəcləyir qapımı
Hər gəlib keçən anım.

## Ürəyimi titrədir

Uzaqlardan gələn səs.
Sızlayır içimdəki
Qaralan arzu-həvəs.

Dünya öz gərdişində,
Nə deyim, nə danışım?
Xoş sözə tamarzıyam,
Hərdən ağrıyır başım...

Düz çıxdı dediklərin, -
Həyat bir bilməcədir.
Burda yaman soyuqdur,
Sizdə hava necədir?..

## SÖZ

Cavabsızdı "nə üçün"lər, "nədi"lər,
Haqqımızı çeynədilər, yedilər.
Üz qaraldar əzəl-axır dedilər -
Bic doğulan yalan kəlmə, yalan söz.

İsidəcək canımızı təzədən,
Kəsdirəcək yanımızı təzədən,
Duruldacaq qanımızı təzədən -
Bulud kimi kövrələn söz, dolan söz.

Nizamidən, Füzulidən söz açdı,
Xətainin qılıncında iz açdı.
Məmməd Araz hikmətində göz açdı -
Zaman-zaman qiymətini alan söz.

Zərifliyi bir bənövşə həyası,
Selə dönsə sal daşları oyası.
Sönən deyil közərtisi, ziyası -
Yaşayacaq bizdən sonra qalan söz.

## DÜŞDÜM

Bir qız qəfil yoluma
Çıxdı-dalınca düşdüm.
Elə bil məni oda
Yaxdı-dalınca düşdüm.

Güvəndikcə özümə,
Taqət gəldi dizimə.
Gülümsəyib üzümə
Baxdı - dalınca düşdüm.

Qəlbdə dil açdı həvəs,
"Gecikmə" - dedi bir səs.
Bildim sevdiyi bir kəs
Yoxdu - dalınca düşdüm.

Sözlə isindi canı,
Qaynadı mənə qanı.
Qabaqlayıb zamanı,
Vaxtı - dalınca düşdüm...

Erkən açan gül idi,
Od soraqlı kül idi.
Bir bulanmaz göl idi,
Axdı - dalınca düşdüm.

## ŞƏLALƏ

Dərələrə sığışmayır harayı,
Tunc sinəli sərt qayalar "sarayı".
Gah günəşi sehrləyir, gah ayı -
Bu gözəli saçlarından kim asıb?

Dağ döşündə düşüb qalan aynadır,
Sal daşları elə bil ki, qaynadır.
Ovcundakı damlaları oynadır -
Bu gözəli saçlarından kim asıb?

O, dağlarda bir gözəllik allahı,
Qəlb sızladan nə dərdi var, nə ahı.
Bilən varmı axı, nədir günahı -
Bu gözəli saçlarından kim asıb?

Şırıltısı havalanan xoş səsi,
Möcüzədir bu ilahi töhfəsi.
Qorxudanmı avazıyıb çöhrəsi -
Bu gözəli saçlarından kim asıb?

Nə nərgizə, nə laləyə dönübdü,
Kim deyir ki, piyaləyə dönübdü?
Sızlayanda şəlaləyə dönübdü -
Bu gözəli saçlarından kim asıb?..

## Dedilər

Üzdə mələktək gəzdilər,
Daldada başlar kəsdilər.
Yolumu daşla kəsdilər-
Bacarırsan get-dedilər.

Yumruq kimi düyüldülər,
Açılmayan düyündülər...
Dikəldilər, oyündülər-
Özlərinə "büt" - dedilər.

Yüz yerin bici, əyrisi
Bir divə döndü hərəsi.
Aranı qatdı birisi -
Mənə tövbə et - dedilər.

Bu daş atıldı haradan,
Xəbərsiz idi Yaradan...
Özləri çıxdı aradan -
Şeytana lənət dedilər...

## Qoru

İnsan yüngül olsa hörmətdən düşər,
Həsrətdən, kədərdən saça dən düşər.
Mətləb uzananda qiymətdən düşər,
Kəlməni uca tut, sözünü qoru.

İstəyə möhtacdır bir parça daş da,
Şeytan yuva qurqr ağılsız başda.
İşığı azalsa zülməti başlar,
Qoyma nurdan düşə, gözünü qoru.

Söykə kürəyini obaya-elə,
Bir də çətin düşər bu çağlar ələ.
İsmayıl, düşmənin ölməyib hələ,
Namərd adamlardan özünü qoru.

## İçimdə boğulan səs

Eşidən yox harayımı
Ünüm yetmir uzaqlara.
Yol ayrıcında qalmışam,
Bilmirəm üz tutum hara?

Ayağıma ilişən daş
Buraxmır ki, çıxıb gedəm.
Gözlərimdə donubdu yaş,
Yaxamdan yapışıbdı qəm.

Üz-gözümdən qırov yağır,
Hər anım bir soraq kimi.
Arxamca düşən qara yel
Ulayır yalquzaq kimi.

Zülmət kəsdirib üstümü,
Səbrimə sığınıb ahım.
Yuxum ərşə çəkilibdir,
Açılmaq bilmir sabahım.

Hərdən üzümə toxunur
Ölümün soyuq nəfəsi.
Bilmirəm harda dəfn edim
İşimdə boğulan səsi...

## Şeirlə qan qohumuyam

Məsləkim, andım, arzumdu,
Halal çörəyim-duzumdu.
Oxunmaz alın yazımdı-
İstəkli sonamdı şeir.

Bir vaxtlar dil açanda mən,
Göyərdi ovcumdakı dən.
Bildim ki, bəxtimə düşən-
Bəxşişdi, ənamdı şeir.

Bulanmayan axar suyam,
Saflıqdır ismətim-həyam.
Şeirlə qan qohumuyam-
Atamdı-anamdı şeir.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073
"AZƏRBAYCA
Telefon: 538
Fa
adalet
Qəzetdə "
məlumatl